Bu günə qədər portaldan istifadə edənlərin ümumi sayı 3745 nəfər, o cümlədən Bakı şəhəri üzrə 2000 nəfər, Sumqayıt şəhəri üzrə 265 nəfər, Gəncə şəhəri üzrə 97 nəfər təşkil edir.

Qeyd edək ki, portalda elektron dərslikləri e-pub, oflayn və onlayn formatda yükləmək imkanları mövcuddur. Aşağıdakı cədvəldə fənlər üzrə elektron dərsliklərin müxtəlif formatda yüklənmə statistikası əksini tapıb.

| S | Dərsliyin adı | E-pub | Oflayn | Onlayn | Cəmi |
|---|---|---|---|---|---|
| 1 | Biologiya 6-cı sinif | 103 | 103 | 391 | 597 |
| 2 | Azərbaycan dili 6-cı sinif | 171 | 135 | 440 | 746 |
| 3 | Fizika 6-cı sinif | 61 | 71 | 208 | 340 |
| 4 | Coğrafiya 6-cı sinif | 37 | 50 | 141 | 228 |
| 5 | Azərbaycan tarixi 6-cı sinif | 106 | 106 | 210 | 422 |
| 6 | Ümumi tarix 6-cı sinif | 47 | 44 | 146 | 237 |
| 7 | Həyat bilgisi 6-cı sinif | 31 | 25 | 92 | 148 |
| 8 | İngilis dili 6-cı sinif | 82 | 129 | 310 | 521 |
| 9 | Riyaziyyat 6-cı sinif | 133 | 127 | 386 | 646 |
| 10 | İnformatika 6-cı sinif | 19 | 26 | 85 | 130 |

Cədvəldən göründüyü kimi, daha çox Azərbaycan dili (746 nəfər), riyaziyyat (646), biologiya (597) və ingilis dili (521) elektron dərsliklərindən istifadə olunub.

Hələlik yalnız Azərbaycan bölməsi üzrə 6-cı sinif elektron dərsliklər portala yerləşdirilib. Cari ilin sonuna qədər VII sinif üzrə 10, II və III siniflər üzrə ayrı-ayrılıqda 5 elektron dərsliyin portalda yerləşdirilməsi nəzərdə tutulub.